Aqrar Xidmətlər Agentliyi

# Pomidorun bürünclük virusu

## (Tomato spotted wilt tospovirus (TSWV))



## Zərərverici haqqında

Pomidorun bürünclük virusu əsasən tripslər vasitəsilə sağlam bitkilərə ötürülür. Yarpaqlar üzərində əvvəlcə qəhvəyi rəngli daha sonra bürünc renginə çevrilən ləkələr olur. Bəzən bürünclük nekroza çevrilərək bitkini quruda bilir, yarpaqlar aşağı və içə doğru qıvrılır. Bitki qıvrılmış görkəm alır. Yarpaq saplağında, gövdədə və yeni əmələ gələn zoğlarda tünd qəhvəyi rəngli ləkələr meydana çıxır. Zoğ uclarında geriyə ölüm, bitkidə kələ-kötürlük və ümumi solğunluq yaranır. Meyvələr üzərində çox sayda iç-içə mərkəzi qabarıq olan halqalar şəklində ləkələr görünür. Yetişmiş meyvələrdə çox sayda konsentrik və ətrafı sarı rəngdə dairəşəkilli ləkələr əmələ gəlir.

## Mübarizə tədbirləri

**Karantin mübarizə:**
İlk növbədə karantin tədbirlərinə ciddi əməl edilməlidir.

**Aqrotexniki mübarizə:**
Sirayətlənmiş bitki hissələri vaxtaşırı yığılmalı,sahədən çıxarılmalı və xüsusi ayrılmış yerlərdə məhv edilməlidir.

**Kimyəvi mübarizə:** Virusun daşıyıcısı olan həşəratlarla (tripslərlə-əsasən qərb çiçək tripsi) ciddi mübarizə aparılmalıdır



**Zədəsi**